# “Həmişə Azərbaycanla olan”

**Dünən Mədəniyyət Nazirliyinin Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ümummilli lider Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar “Həmişə Azərbaycanla olan” adlı anım mərasimi keçirilib.**



Tədbiri muzeyin baş direktoru, akademik Rafael Hüseynov açaraq bütün mənalı ömrünü Azərbaycanın tərəqqisinə həsr etmiş, milli dövlətçilik tarixində xüsusi bir mərhələni təşkil edən ulu öndər Heydər Əliyevin siyasi təfəkkürünün, azərbaycançılıq ideologiyasının müasir dövrün iqtisadi, mədəni, siyasi dirçəlişindəki mühüm rolundan danışıb. O, bu uzaqgörən siyasətin xalqın milli özünüifadə və milli qürur hissinin yüksəlişində danılmaz amil olduğunu vurğulayıb.

Akademik bildirib ki, ulu öndər Heydər Əliyevin müdrik şəxsiyyəti sayəsində sovet dönəmində Azərbaycan Sovet İttifaqına daxil olan respublikalar arasında önə çıxmağa başladı, ölkəmizin iqtisadiyyatı dirçəldi. Heydər Əliyevin təbiətində quruculuq amilinin üstünlük təşkil etdiyini deyən muzeyin direktoru Rafael Hüseynov dahi şəxsiyyətin Sovet İttifaqının rəhbərliyində təmsil olunmağa başladıqdan sonra daim qurub-yaratmağa təşəbbüs göstərdiyini diqqətə çatdırıb. O, ümummilli liderin müstəqillik illərində həyata keçirdiyi islahatların, gördüyü mühüm işlərin Azərbaycanın bütün sahələrdə inkişafı ilə nəticələndiyini vurğulayıb.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə mədəniyyətin, ədəbiyyatın, incəsənətin inkişafına göstərdiyi yüksək diqqət və qayğıdan söz açılıb. Bildirilib ki, bu böyük şəxsiyyətin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti yüksəliş dövrü keçib. Hələ keçmiş sovet dövründə ulu öndər klassiklərimizin, mədəniyyət və incəsənət xadimlərimizin, elm adamlarının yubiley və yaradıcılıq gecələrinin təkcə ölkədə deyil, onun hüdudlarından kənarda da qeyd edilməsinə müvəffəq olub.

Alim ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, istiqlalını məhv olmaqdan xilas etməsini, onu möhkəmləndirməsini dahi liderin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən olduğunu diqqətə çatdırıb. O, Azərbaycanın hazırda sürətlə inkişaf edərək dünya ölkələri arasında özünə layiqli yer tutduğunu, respublikamızda qazanılan bütün nailiyyətlərin Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu vurğulayıb.

Qeyd olunub ki, Prezident İlham Əliyev Heydər Əliyevin açdığı işıqlı yolu uğurla davam etdirərək Azərbaycanın istiqlalını daha da sarsılmaz edib, ölkəmizi dünya dövlətləri arasında üstün mövqeyə çıxarıb, qlobal enerji və nəqliyyat layihələrini gerçəkləşdirərək müstəqilliyimizin dönməzliyinin və xalqımızın firavanlığının təmin edilməsinə əvəzsiz töhfələr verib.

Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması ümummilli liderin ən ali arzusu olaraq reallığa çevrildi.

Tədbirdə ümummilli liderin zəngin siyasi fəaliyyətindən, müasir Azərbaycan dövlətinin qurulması istiqamətində atdığı tarixi addımlardan danışılıb.

Sonda iştirakçılar ulu öndərin həyat və fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar.

Tədbirdə Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev də iştirak edib.

***Qabil YUSİFOĞLU,***
***“Xalq qəzeti”***